AzərEnerji®

**“Azərenerji” Açıq Səhmdar Cəmiyyətinin**
**“Ətraf mühitin qorunması üzrə fəaliyyəti”**

“Azərenerji” ASC elektrik enerjisi istehsalını, ötürülməsini və dispetçer idarəetməsini həyata keçirən öz fəaliyyəti sahəsində regionda ən böyük və aparıcı müəssisədir.

Səhmdar Cəmiyyətinin “Ətraf mühitin qorunması üzrə fəaliyyəti” Azərbaycan Respublikası Konstitusiyasına, öz nizamnaməsinə, Azərbaycan Respublikasının digər normativ hüquqi aktlarına, həmçinin, ətraf mühitin qorunması və təbii resursların səmərəli istifadəsi sahəsində Azərbaycan Respublikasının tərəfdaş çıxdığı beynəlxalq müqavilələrə əsaslanır.

“Azərenerji” ASC-nin “Ətraf mühitin qorunması üzrə fəaliyyəti” ISO 14001 Beynəlxalq Standart”ına uyğun olaraq, ən müasir texnologiyaları tətbiq etməklə elektrik enerjisinin istehsalı sahəsində ekoloji aspektləri yaxşılaşdıraraq insan və ətraf mühitə mənfi təsirlərin qarşısının alınmasına yönəlmişdir.

“Ətraf mühitin qorunması üzrə fəaliyyəti” Səhmdar Cəmiyyətinin ətraf mühitin mühafizəsi və ekoloji təhlükəsizliyinin təmin edilməsi istiqamətində aşağıdakı əsas prinsipləri müəyyən edir:

- Ətraf mühitin qorunması sahəsində Azərbaycan Respublikası tərəfindən qəbul edilmiş normativ sənədlər, beynəlxalq saziş və konvensiyalar əsasında müəyyənləşdirilmiş qaydaların və tələblərinin icrası;
- Enerjinin istehsalı və ötürülməsi zamanı yarana biləcək ekoloji risklərin azaldılması üçün müvafiq qabaqlayıcı tədbirlərin görülməsi;
- Qeyri-ənənəvi enerji mənbələri, o cümlədən, kiçik su elektrik stansiyaları sahəsində tədqiqatların təşkili, aparılması və tətbiqi;
- Səhmdar Cəmiyyətinin əməkdaşlarının müvafiq təlimlərə cəlb edilərək, onların öz iş fəaliyyəti çərçivəsində ətraf mühitin qorunması üçün fəal iştirakının təmin olunması;
- Ətraf mühitin mühafizəsinə dair hökumətin, mərkəzi və yerli icra strukturları, ictimai birliklər, mətbuat orqanları, elmi-tədqiqat institutları və istehlakçıların nümayəndələri ilə birgə aidiyyəti tədbirlərin görülməsi;
- Təbii resursların maksimal dərəcədə səmərəli istifadə edilməsi, gələcək nəsillər üçün əlverişli ətraf mühitin saxlanması və davamlı dinamik inkişaf Səhmdar Cəmiyyətinin əsas fəaliyyət prinsipidir.

**“Azərenerji” ASC-nin rəhbərliyi “Ətraf mühitin qorunması üzrə fəaliyyəti”nin işçi heyətinin diqqətinə çatdırılması, bütün kollektiv tərəfindən həyata keçirilməsi, onun tələblərinə əməl edilməsi və təkmilləşdirilməsini təmin edir.**